UOT: 598.1

# QARABAĞIN HERPETOFAUNASININ ÖYRƏNİLMƏ TARİXİ, NƏTİCƏLƏRİ VƏ PERSPEKTİVLƏRİ

**[1]QASIMOVA G.H., BÜNYATOVA S.N., İSGƏNDƏROV T.M.**
*AMEA Zoologiya İnstitut*
*[1]gqasimova@mail.ru*

**Abstract.**The article briefly describes the history of the study of Karabakh herpetofauna over 250 years in chronological order, shows the reseaches of foreign and local scientists in the study of species diversity and ecology of amphibian and reptile fauna of Karabakh. The negative impact of war and occupation on the fauna of Karabakh, including herpetofauna, is characterized. It has been noted importants of conducting regular research to assess the current ecological status of herpetofauna, study and conserve the diversity of fauna in the liberated territories of Karabakh and exposed to the effects of war.
**Keywords:** *Karabakh, herpetofauna, chronological order, batraxofauna*

Qarabağ Azərbaycanın Kiçik Qafqaz təbii vilayətinə daxildir və ərazisi Qarabağ dağları, Qarabağ vulkanik yaylası və Həkəri təbii rayonlarını əhatə edir. Landşaft müxtəlifliyi baxımından amfibi və reptililər üçün əlverişli təbii ərazilərdir. Müxtəlif hipsometrik səviyyələrə (d.s.h.300-3000 m) uyğun yarımsəhra və bozqırlar, kserofit-bozqırlar və kserofitlər, habelə enliyarpaq dağ meşələri və yüksək dağlıqların subalp və alp çəmənlikləri Qarabağın zəngin herpetofaunasını formalaşdıran təbii amillərdir. Qarabağ həmçinin çaylarla zəngindir (Tərtərçay, Qarqarçay, Həkəriçay və s.). Bu da həyat tərzi su hövzləri ilə bağlı olan amfibilərin geniş yayılması üçün əlverişli şərait yaradır.

Azərbaycanda herpetofaunanın öyrənilməsi tarixi 250 ilə yaxın bir dövrü əhatə edir. Herpetofaunanın öyrənilmə tarixinə nəzər saldıqda görürük ki, Qarabağ Azərbaycanın ilk zooloji tədqiqatlar aparılan ərazilərindəndir. Qafqazın faunasını elmi cəhətdən tədqiq edən əcnəbi zooloqlar hələ XIX əsrin birinci yarısından başlayaraq Azərbaycanın bir çox ərazilərinə, o cümlədən Qarabağa maraq göstərmişlər. Qafqazın və Azərbaycanın herpetofaunasının bir çox növləri ilk dəfə məhz Qarabağ ərazisində aşkar edilmişir.

Qarabağın herpetofaunasının tədqiqində botanik R.F.Hohenakkerin (1834-1835) böyük xidmətləri olmuşdur. O, Şirvan, Gəncə, Talışın faunası ilə yanaşı Qarabağın faunasını da öyrənməyə təşəbbus göstərmişdir. Bu ərazilərdən o, xeyli kolleksiya toplamışdır. Sonrakı illərdə (1866-1870, 1880, 1890) Azərbaycanın batraxo- və herpetofaunasının öyrənilməsində Tbilisi Təbiətşünaslıq Muzeyinin (Qafqaz Muzeyinin) direktoru Q.İ.Raddenin müstəsna rolu olmuşdur. 1890-cı ildə Q.İ.Radde İ.Valentin ilə Qarabağa və Naxçıvana çox əhəmiyyətli səfərlər etmişlər. Bütün bu səfərlər zamanı toplanmış zəngin herpetoloji kolleksiyalar Rusiya İmperator Elmlər Akademiyasının Zooloji Muzeyinə və Qafqaz Muzeyinə təhvil verilmişdir. Qafqaz Muzeyinin herpetoloji kolleksyaları haqqında elmi məlumatlar 1899-cu ildə Q.İ.Raddenin "Коллекция Кавказского Музея» adlı əsərində dərc edilir [2, 4, 5, 9].

XIX əsrin ikinci yarısında Azərbaycanın herpetofaunası daha intensiv öyrənilməyə başlayır. 1933-1936-cı illərdə SSRİ EA-nın Azərbaycan filialının Zoologiya sektorunun əməkdaşları Azərbaycanın cənub-şərq, şimal-şərq və qərb rayonlarının, Böyük Qafqazın cənub ətəklərinin, o cümlədən Şuşanın herpetofaunasını tədqiq etmək üçün ekspedisiyalar təşkil etmişlər. Bu ekspedisiyalarda Azərbaycanın yerli zooloq alimləri A.N.Əlizadə, V.S.Elpatevski, A.V.Boqaçev və b. iştirak etmişlər [2, 4, 5, 9].

XX əsrin əvvəllərində Azərbaycanın amfibilər və reptililərlər faunasının tədqiqi məşhur əcnəbi zooloqlar tərəfindən davam etdirilmişdir. Xüsusilə, A.B.Şelkovnikov və K.A.Satuninin tədqiqatları daha məhsuldar olmuşdur. Araz çayı vadisində, Cavat, Cəbrayıl və Zəngəzur qəzalarında tədqiqatlar aparmış K.A.Satunin, Qafqaz faunası üçün yeni növlər aşkar etmişdir: *Mabuya aurata* [=*Trachylepis septemtaeniata transcauasica* (Chernov, 1926)] və *Contia satunini* [=*Rhynchocalamus melanocephalus satunini* (Nikolsky,1899)]. Toplanmış kolleksiyalar Tbilisi Qafqaz Muzeyinə təhvil

verilmişdir. Bu tədqiqatların nəticələri barədə A.B.Şelkovnikov sonralar "Известня Кавказского Музея" (Qafqaz Muzeyinin Xəbərləri) toplusunda əsərlər dərc etdirmişdir [2,4, 5, 9].

Qarabağın sürünənlər faunasının tədqiqi tarixən XIX əsrdən başlasa da, sonrakı dövrlərdə tədqiqatlar davam etdirilmiş, sovet herpetoloqları A.M.Ələkbərov (1951, 1978) və onların davamçıları T.R.Əliyev (1974), T.M. İsgəndərov (1978), S.Q.Cəfərova (1984) və S.B.Əhmədov (1992) tərəfindən öyrənilmişdir. Daha sonra S.Q.Cəfərova (1974-1980) tədqiqatlarını davam etdirərək Kiçik Qafqazın Azərbaycan hissəsində dağ və dağətəyi ərazilərdə sürünənlərin biomüxtəlifliyini və fauna komplekslərini tədqiq etmişdir. Valentin kərtənkələsi (=*Darevskia valentine* Boett., 1892) və Kür kərtənkələsi (=*D.portschinskii* Kessler, 1878) Azərbaycan üçün, zolaqlı çılpaqgöz isə (=*Ablepharus bivittatus* Menetries, 1832) Kiçik Qafqaz faunası üçün ilk dəfə göstərilmişdir [2, 4, 5, 9].

Aparılmış tədqiqatların nəticəsində Qarabağın batraxo (Amphibia) və herpetofaunasının (Reptilia) növ tərkibi müəyyən edilmişdir. Belə ki, mövcud ədəbiyyat məlumatlarına görə Qarabağ ərazisində 5 amfibi və 37 reptili növü yayılmışdır [1, 2, 4, 6, 7]. Rast gəlinən amfibilər yalnız quyruqsuzlara (Anura) aiddir. Ümumiyyətlə, Qarabağın amfibilər faunasının növ müxtəlifliyi reptililərə nisbətən zəif öyrənilmişdir, ona görə bu sahədə daha ətraflı tədqiqatlara ehtiyac vardır. Mövcud elmi mənbələrə görə Qarabağ ərazisində reptililərdən 3 növ tısbağa (*Testudines*), 19 növ kərtənkələ (*Saura*) və 15 növ ilan (*Serpentes*) yayılmışdır [1, 2, 4, 6, 7].

Təəssüf ki, 1988-ci ildən başlayaraq Qarabağda erməni separatizminin baş qaldırması, ərazilərin mənfur Ermənistan tərəfindən işğal edilməsi və işğalın 30 ilə yaxın davam etməsi Qarabağ ərazisində batraxoloji və herpetoloji tədqiqatlar aparmağa imkan verməmiş, faunanın ekoloji vəziyyəti barədə məlumat əldə etmək mümükün olmamışdır [3].

Zəngin herpetofaunaya malik Qarabağ ərazisində 30 ilə yaxın davam edən müharibə şəraiti Qarabağın zəngin fauna resurslarına təsirsiz ötüşməmişdir. Müharibə amillərinin (atəşlər, partlayışlar, yanğınlar və s.) təsiri nəticəsində amfibi və reptililərin yaşayış yerləri deformasiyaya uğramış və ya sıradan çıxmış, populyasiyalarının biotoplar üzrə normal paylanması pozulmuşdur. Müharibə ilə əlaqədar saysız-hesabsız müdafiə istehkamlarının qurulması (səngərlər, yeraltı sığınacaqlar və s.), minaların basdırılması, xüsusilə aktiv müharibə fazasında baş verən partlayışlar nəticəsində relyefə ciddi ziyan dəymiş, sürünənlərin və amfibilərin xüsusuilə həssas olduğu narahetdici amillər meydana çıxmışdır.

Yuxarıda göstərilənləri nəzərə alaraq, işğaldan azad olmuş və müharibə amillərinin təsirinə məruz qalmış Qarabağ ərazilərində herpetofaunanın müasir ekoloji vəziyyətini qiymətləndirmək, fauna müxtəlifliyini öyrənmək və qorumaq məqsədilə bu ərazilərdə mütəmadi tədqiqatlar aparmaq vacibdir. Bu məqsədlə perspektivdə AMEA Zoologiya İnstitutunun herpetoloq alimləri tərəfindən 2022-2025-cü illərdə Qarabağın işğaldan azad edilmiş ərazilərində batraxo və herpetofaunanın ilkin monitorinqi və daha sonra mərhələli şəkildə tədqiqi planlaşdırılmışdır.

## ƏDƏBİYYAT


1. Azərbaycanın heyvanlar aləmi // Onurğalılar, III cild. Bakı, "Elm" 2004.
2. İsgəndərov T.M. Azərbaycanın zəhərli ilanlarının öyrənilməsinin nəticələri və perspektivlər // AMEA-nın Xəbərləri (Biologiya və Tibb seriyası). Bakı, Elm, 2013. Cild 68, № 1, s.76-84.
3. İsgəndərov T.M., Bunyatova S.N., Qasımova G.И. Qarabağın amfibilər və reptililər faunasının növ müxtəlifliyi / Qarabağın biomüxtəlifliyi, torpaq və su ehtiyatları: keçmişi, bugünü və gələcəyi. Onlayn konfrans, 20-21 may 2021-ci il, Bakı, Azərbaycan, s. 80.
4. İsgəndərov T.M., Əhmədov S.B. Azərbaycanda herpetofaunanın öyrənilməsi tarixi (Xronoloji icmal, nəticələr və perespektivlər) // AMEA Zoologiya İnstitutunun əsərləri. 2014, cild 32, № 1, Bakı, Elm, s.67-82.
5. Алекперов А.М. Земноводные и ппресмыкающиеся Азербайджана // Изд-во «Элм», Баку, 1978.
6. Алиев Т.Р. Ядовнтые змеп Азербайджана // Автореф.днсс.канд.бнол.наук. Баку, 1974. 20 с.
7. Ахмедов С.Б. Сцннковые ящернцы Закавказья // Автореф. Дисс. Канд. Биол. Иаук, Ашхабад, 1992, 25 с.

8. Джафарова С.К. Фауиа, экология и охраиа пресмыкающихся Малого Кавказа в пределах Азербайджаиа. Диссертация иа соискаиие учеиой степеии каидидата бпологических иаук, Баку, 1984, 149 с.
9. Новрузов Н.Э., Джафаров А.Р. Краткий исторический обзор развития герпетологических исследоваиий в Азербайджаие // AMEA Zoologiya İnstitutunun əsərləri. 2015, cild 33, № 2, с.167-177.